# Torpaq, əgər uğrunda ölən varsa VƏTƏNDİR!

*Ölkəmizin hər yerində Vətən uğrunda canından keçmiş şəhidlərin xatirəsi ehtiramla yad edilir*





**2020-ci** il Oktyabr ayının 6-da Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Ağcabədi rayonunun Yeni Qaradolaq kənd sakini Hafiz Həziyevin şəhidlik zirvəsinə ucalmasının 2-ci ili tamam olmuşdur. Şəhidin anım günü münasibətilə Ağcabədi rayon İcra Hakimiyyətinin Başçısı Rafil Hüseynov, YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov, Hüquq- mühafizə orqanlarının rəhbərləri, kənd ictimaiyyətinin iştirakı ilə şəhid Hafiz Həziyevin qəbri ziyarət edilmiş, məzarı üzərinə tər çiçək dəstələri düzülərək, xatirəsi ehtiramla yad edilmişdir. Mərasimdə Yeni Qaradolaq kənd tam orta məktəbinin şagirdlərinin ifasında şəhidlərə həsr edilmiş şeirlər ifa edilmişdir. Günün ikinci yarısında YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov aparatın əməkdaşları ilə birlikdə şəhidin ailəsini də ziyarət etmiş, ailə üzvlərinin kədərinə şərik olmuşdur.

Söhbət zamanı şəhidin atası Varoğlu Həziyev oğlu Hafizin ailənin kiçik oğlu olduğunu qeyd etmiş, onun vətənpərvər, cəsarətli bir gənc kimi müharibənin ilk günlərindən döyüşlərə qatıldığını, 2020-ci ilin oktyabr ayının 5-də Füzuli uğrunda gedən qanlı döyüşlərdə qəhrəmancasına həlak olduğunu, ölümündən sonra Azərbaycan Respublikasının Prezidentinin fərmanlarına əsasən "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edildiyini bildirdi. YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov 30 ilə yaxın düşmən işğalında olan 20% torpağımızın məhz Hafiz kimi qəhrəman oğlanların sücaəti nəticəsində işğaldan azad edildiyini bildirdi. Bu qələbənin qazanılmasında canını Vətən yolunda fəda etmiş şəhidlərə allahdan rəhmət, qazilərimizə isə can sağlığı arzuladı. Şəhid atası Varoğlu Həziyev anım günündə onların ailəsini ziyarət etdiklərinə görə YAP Ağcabədi rayon təşkilatının əməkdaşlarına öz minnətdarlığını bildirmiş, şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə, həmçinin şəhidlərin canı və qanı bahasına əldə edilmiş torpaqlarda bərpa və yenidənqurma işlərinə şəxsən özü nəzarət etdiyinə görə Ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) İlahiyyat fakültəsinin məzunu, 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərərək, şəhid olmuş Vüqar Məmmədovun Anım Günü tədbiri keçirilib. Tədbirdə Aİİnin rəhbər heyəti və əməkdaşları, tələbələr, o cümlədən şəhidin döyüş yoldaşları, qazilər iştirak ediblər. Öncə Dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra Aİİ-nin III kurs tələbəsi Kənan Əliyev tərəfindən şəhidlərimizin ruhuna Quran tilavəti təqdim edilib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov Anım Günü tədbirində çıxış edərək Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad olunan torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edib. Rektor 44 günlük Vətən müharibəsində güclü Xalq, güclü Dövlət və məğrur Ali Baş Komandanın birgə mübarizəsinin qələbəni şərtləndirən əsas amil olduğunu qeyd edib.

Ali təhsil müəssisəsinin rəhbəri şəhid Vüqar haqqında xatirələrini bölüşərkən tələbələrə bildirib ki, Vüqar vətənpərvərliyin, cəsarətin və əxlaqın nümunəsidir.Gənclərimiz belə oğullarımızın göstərdikləri şücaəti, qəhrəmanlığı özlərinə örnək olaraq götürməlidirlər.

Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi şəhid Vüqar Məmmədovun anası Əsmər Məmmədova oğlunun ordu sıralarına könüllü qoşulduğunu qeyd edib. Şəhid anası onun keçdiyi döyüş yolundan bəhs edib. Şəhid Vüqar Məmmədovun döyüş yoldaşı İsmayıl Məsimli keçdikləri döyüş yolundan bəhs edib, şəhidin göstərdiyi şücaətlərdən söhbət açıb.

Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, Aİİ Həmkarlar İttifaqı Komitəsinin sədri Ənvər Mustafayev Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edən 44 günlük Vətən müharibəsi iştirakçıları barədə məlumat verib. Onların torpaqlarımızın azadlığı uğrunda keçdikləri döyüş yolundan, şücaətlərindən danışıb. Ə.Mustafayev xüsusi vurğulayıb ki, Vətənimizin azadlığı uğrunda canlarından keçən şəhidlərimizi hər günümüzdə xatırlayaq, onların göstərdikləri şücaətləri auditoriyada keçdiyimiz hər dərsdə gənclərə xatırladaq.

Qeyd edək ki, Ə.Mustafayev Vətən müharibəsində böyük şücaətlər göstərmiş, dövlət tərəfindən çox sayda medallarla təltif olunan Feyzi Mustafayevin qardaşıdır. Ailə üzvlərinin bir neçəsi döyüş meydanlarında böyük şücaətlər göstərmiş Azərbaycan İlahiyyat İnstitutunun müəllimi Qafqaz Abdurrahmanov isə keçirdikləri hissləri bölüşüb. Şəhidlərin və qazilərin keçdikləri döyüş yolundan, xatirələrindən söhbət açıb. Sonda şəhid Vüqar Məmmədovun ruhuna ehsan süfrəsi verilib.





Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının üzvləri Müəllimlər Günü münasibətilə Bərdə şəhərində Ermənistanın törətdiyi terror nəticəsində həlak olan şəhər 1 saylı tam orta məktəbin müəllimi olmuş şəhid Fuad müəllimin, şəhər inklüziv- internat təmayüllü gimnaziyanın müəllimi Şəhriyar müəllimənin ailəsində olmuş, Vətən müharibəsi şəhidi polkovnik-leytenant Mehman Qəmbərovun qardaşı, Qarağacı məktəbinin müəllimi Cavid müəllimi ziyarət etmişlər. Görüş zamanı Ermənistanın ölkəmizə qarşı apardığı təcavüzkar siyasətdən, beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq mülki əhalinin yaşadığı məntəqələri atəşə tutmasından danışılmışdır. Söhbət zamanı YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya bildirmişdir ki, Bərdə şəhəri və rayonun kəndləri 2020 -ci oktyabrın 5-i, 8-i, 27-si, 28-i, eləcə də noyabrın 7-də vəhşi Ermənistan Ordusunun raket və ağır artilleriya hücumlarına məruz qalıb. Bərdə rayonunda törədilən terrorlar nəticəsində 28 nəfər həlak olub, 108 nəfər yaralanıb.

Qeyd edilib ki, 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi ilə erməni faşizminə son qoyuldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tarixi Qələbə qazanaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Şəhidlərimizin qisası alındı. Qəhrəman oğullarımızın Vətən uğrunda göstərdiyi fədakarlıqlar dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.